# Özünə öz kitabını hədiyyə edən Qəhrəman Əliyevə məktub

**Öncədən sizi salamlayır və gec də olsa yubileyinizi təbrik edirəm. Təbii ki, söz adamları üçün qohumdan çox sözünün dəyərli olması, sözünün dillərdə dolaşması önəmlidi. Yəni istənilən sözə, xüsusilə şeirə könül verən insan əslində hər təzə şeirləri ilə yenidən doğulur. Bu mənada düşünürəm ki, ömrümüzün bu çağında da rübailər, bayatılar, eləcə də şeirin digər janrları ilə baş-başa qalmaq 75 yaşını qeyd edən bir insan üçün çox təqdirəlayiq bir haldır. Deməli, onun ilham bulağı yenə çağlayır, yenə könül duyğuları sevgilə, torpağa məhəbbətlə, insanlara sayğı ilə, təbiətə könül açmağı ilə həmahəng bir şəkildə döyünür, çırpınır və oxucuların qapısını həmin bulağın təravətli suyu ilə açır...**

Həmkarım, "Əməkdar jurnalist" İdris Şükürlü özünün redaktoru olduğu "Özümdən özümə hədiyyə" kitabını mənə bağışlayanda bildirdi ki, müəllif, yəni Qəhrəman müəllim sözün bütün mənalarında ziyalıdır. Və həm də sözün bütün mənalarını dəyərləndirməyi, onu şərh etməyi çox gözəl bacarır.

Təbii ki, bu təqdimat məndə bu kitaba bir maraq yaratdı. Və həmin marağın bir damarı da elə kitabın adı oldu. Necə deyərlər, ilk dəfə qarşılaşdığım məqam idi. Yəni müəllif özü öz kitabını öz doğum gününə hədiyyə hesab edirdi! Zənnimcə, bu hədiyyəni həm şərəfləndirir, həm də hədiyyəni qəbul edənin özünün mənəvi zənginliyini ifadə etmiş olur. Ona görə də mən elə bu ovqatla da Qəhrəman müəllimin kitabını gözdən keçirməyə başladım. Kitab 4 hissədən ibarətdi. Həmin hissələr rübailər, bayatılar, Qarabağ bayatıları və şeirlər bölümüylə tamamlansa da, burada müəllifin yaradıcılığını oxucuya tanıdan, təqdim edən fərqli bir bölüm də var. Bu da "Mətbuat Qəhrəman Əliyevin yaradıcılığı haqqında" adlanır. Mən bu bölümlərin ardıcıllığına uyğun olaraq öncə rübailəri gözdən keçirirəm.

**Qəm ilə, kədərlə yaşadı anam,**
**Demirəm ürəyi daş idi anam.**
**Məni qəm-qüssəsiz yaşatmaq üçün,**
**Onları qəlbinə daşıdı anam.**

Zənnimcə, bu bayatıdakı ana və övlad obrazları bir-birini elə tamamlayır ki, sanki







gözünün önündə övladının duyğusallığında kövrələrək onu bağrına basmış bir ana əyləşibdi. Şəxsən mən məhz rübainin sözlə ifadə olunmuş mənasını bax, belə tablo kimi gördüm. Həmin gördüyüm mənzərə də mənə pıçıldadı ki, müəllifin bu səmimi və bir az da ağsaqqal məntiqiylə yazdığı rübai həm də nəsihətdi, həm də tövsiyədi. Təbii ki, onu dərk edən üçün, onu anlayan üçün. Və yaxud başqa bir rübaisində Qəhrəman müəllim vurğulayır.

**Gözlərdi ürəyin, qəlbin hakimi,**
**Gözlər görməmişəm ürəyin kimi.**
**Gözlərin gözümə tərəf baxanda,**
**Titrəyim qəlbimin öz sarı simi.**

Bu rübaidə də müəllif min illərdi ki, poeziyamızda, xüsusilə toplumuzda ilk baxışdan sevmənin, vurulmanın, aşiq olmanın tərənnümü içərisində özünün fikrini ifadə etməyi bacarıbdı. Yəni yazılanlar, deyilənlər təkrarlanmayıb. Və müəllif də qəlbinin sarı simini titrədən o baxışlardan heç də inciməyib, əksinə, bu ona xoş duyğular yaşamaq imkanı veribdi.

Mən rübailəri oxuduqca müəllifin yaradıcılığı barəsində fikir söyləmiş xalqımızın mərhum şairi Oqtay Rzanı xatırlayıram. Oqtay müəllim yazıb: "Bəli, rübai hələ də hikmət, təfəkkür aləminin ən dəyərli, bədii vasitəsi tək mövcudluğunu qoruyub saxlayıb". Mən bu iltibası ona görə xüsusi vurğulayırm ki, mıəhz Qəhrəman müəllim də rübainin bu gücündən məharətlə, peşəkarcasına istifadə etməyi bacarıbdı. Ona görə də onun rübailəri bir oxucu olaraq mənə çox xoş təsir bağışladı. Hardasa özünü də həmin o rübai dünyasının içərisində görə bildi. Axı:

**Sevgisiz yaşamaq yalandı, yalan,**
**Sevgidi həyatda insana qalan.**
**Sevib sevilməyi bacarmayanlar,**
**Sayılır ürəksiz, könülsüz olan.**

Düşünürəm ki, məhz sevgi sözə könül vermək yolunda Qəhrəman müəllimin əlindən tutub, onun himayədarı olubdu. Ona görə də bir bayatı çağırıb:

**Əzizinəm baxışlar**
**Məftun edir baxışlar.**
**Üzümə hər baxanda**
**Mənə dünya bağışlar.**

Və yaxud:

**Yar gəlir işıq gəlir**
**Evə yaraşıq gəlir.**
**Könlü eşq ilə dolu**
**Sevgi qarışıq gəlir.**

Şairin rübailərində də, bayatılarında da Qarabağ həsrətimiz, torpaq nisgilimiz əsas xətti təşkil edir. Yəni müəllif demək olar ki, yaradıcılığının böyük bir hissəsini məhz bu ağrımıza, bu faciəmizə həsr edibdi. Ona görə də Qarabağ bayatılarının, xüsusilə cilalayıb, onlara gözünün bütün daxili yanğısını hopdura bilibdi. Və yazıb ki:

**Əzizinəm Qarabağ**
**Həsrət çəkir Qarabağ.**
**Könlümdə qəm yurd salır**
**Gir qəlbimə ara, bax.**

Və yaxud:

**Şuşada meydan yanıb**
**Kül olub hər yer yanıb.**
**Məzarlar qan ağlayır**
**Vaqif, Natavan yanır.**

Şair başqa bir bayatısında isə vurğulayır ki:

**Əzizinəm yaralım**
**Eldən düşən aralım.**
**Vüsal çox yaxındadır,**
**Döz, qadanı mən alım.**

Qəhrəman Əliyevin bu nikbin notlu bayatısı onun özünün 75 yaşına yazdığı şeirində də qabardılır. Bu da onu göstərir ki, şair duyğularına güvənir. Zəfər çalacağımıza, torpaqalarımızı geri alacağımıza əminlik hissini öz poeziyasında qətiyyətlə ortaya qoyur.

Bəli, mən özünün 75 yaşına ən gözəl hədiyyəsi olan kitabın müəllifinin bir oxucusu kimi sonda vurğulamaq istəyirəm ki, "deyilən söz yadigardı" fikri gün kimi aydın bir həqiqətdir. Bax, elə Qəhrəman Əliyevin də yazdıqları həmin o deyilən sözlərin bir nümunəsidir. Və bu sözlər Lerikdə doğulmuş, sözə könül vermiş bir insanın Azərbaycan oxucusuna bir yadigari kimi və müəllifini yaşadacaqdır.

**Əbülfət MƏDƏTOĞLU**